Mayın 17-də “Uşaq dünyası” rəsm qalereyasında ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 85-ci ildönümünə həsr olunan “Uşaq və yeniyetmələrin elmi-texniki yaradıcılıq işlərinə Respublika baxış müsabiqəsi”nin final mərhələsi keçiriləcək.

Müsabiqənin keçirilməsində məqsəd uşaq və yeniyetmələrin elmi-texniki potensialının üzə çıxarılması, yaradıcılıqlarının inkişaf etdirilməsi və onlar arasında təcrübə mübadiləsinin təşkil olunmasıdır.

Texniki yaradıcılığın 5 növü üzrə 15 nominasiyada keçirilən müsabiqədə 8-18 yaşadək uşaq və yeniyetmələr iştirak edir.

Onu da qeyd edək ki, zona mərhələsində ölkəmizin 63 şəhər və rayonundan 300 nəfərdən artıq məktəbli iştirak edib, respublika mərhələsində isə 48 rayon və şəhərdən 220 məktəbli iştirak etmək hüququ qazanıb.Hər nominasiya üzrə I, II və III yelər üçün mükafatlar müəyyən edilib. x